yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur










1 "AMERİKA YALNIŞ ORTAQ SEÇDİ"

2 PUL XƏRCLƏMƏK MƏDƏNİYYƏTİ

3 DÜNYAYA İNSANLIQ DƏRSİ

4 MERAB BASİLAİA İLƏ MÜSAHİBƏ



HAQQIN SÖZÜ - SÖZÜN HAQQI

# Yeni YOL

15 FEVRAL 2018-Cİ İL

№001 (60)


## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN "THE NEW YORK TIMES" QƏZETİNDƏ YAYIMLANAN "AMERİKA YANLIŞ ORTAQ SEÇDİ" MƏQALƏSİ



Amerika Birləşmiş Ştatlarının Orta Şərqdə şəxsi maraqları var, amma Türkiyə Suriya və İraqla təqribən 1290 kilometrlik ümumi sərhədi paylaşır. Bu coğrafi arealda və ondan kənar, Türkiyə və ABŞ eyni məqsədə xidmət göstərirlər: xalqlarımızı hədələyən terror təşkilatlarını məhv etmək. DAEŞ bizim ümumi düşmənımız idi və Türkiyənin aktiv iştirakı olmadan bu qruplaşmaya qalib gəlmək mümkün olmazdı.

Buna baxmayaraq ki, qrup Suriya və İraqda hərbi məğlubiyyətə uğradı, Türkiyə yenidən öz qatqısına davam edir. 2016-cı ildə Suriyanın şimalında yerləşən Carablusun DAEŞ -dən azad olunması məsələsində Türkiyə hərbi-si qərar verici rol oynadı. Türkiyə 10000-dən artıq DAEŞ üzvünü və Əl-Qaidə ilə əlaqəsi olan şəxsi saxlayıb, 5800 terrorçunu deportasiya edib və 4000 şübhəli səfər edən şəxsin ölkəyə daxil olmasına izin verməyib.

(davamı 7-ci səhifədə)

## KVİRİKAŞVİLİ: "GÜRCÜSTAN VASİTƏSİLƏ NEFT VƏ QAZIN NƏQLİ POTENSİALI DAHA BÖYÜKDÜR"

Baş nazir Giorgi Kvirikaşvili hökumətin iclasında Gürcüstan vasitəsilə Xəzər regionundan neft və qazın Avropaya nəql olunması potensialının daha böyük olduğunu deyib. O bildirib ki, Brüsseldə keçirilmiş Aİ-Gürcüstan Assosiasiya Şurasının iclasında Gürcüstanın energetika sahəsindəki əhəmiyyətli roluna da toxunulub.

"Hesab edirik ki, bizi bu istiqamət üzrə yeni maraqlı layihələr gözləyir. Yalnız hökumətin deyil, əhalinin də bununla bağlı motivasiya olunması çox vacibdir. Çünki bu layihələr Gürcüstana rifah və vətəndaşlara əhəmiyyətli nəticələr gətirəcək",- deyə nazir bildirib.

## AZƏRBAYCANLI GƏNCLƏR TBİLİSİDƏ TÜRKİYƏYƏ DƏSTƏK AKSİYASI KEÇİRİB

Tbilisidə azərbaycanlı gənclər Türkiyə səfirliyinin qarşısında dəstək aksiyası keçiriblər. Aksiyada 30-a yaxın gənc iştirak edib.

Əllərində Azərbaycan və Türkiyə bayraqlarını tutan gənclər Türkiyənin Suriyanın Afrin bölgəsində həyata keçirdiyi anti-terror əməliyyatını dəstəkləyiblər.

## TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRİ BÖLGƏLƏRƏ SƏFƏR EDİB

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan fevralın 6-sı Kvemo Kartli qubernatoru Qriqol Nemsadze ilə görüşüb. Tərəflər qarşılıqlı əməkdaşlığın perspektivlərindən danışıblar. Q. Nemsadze yeni təyin olunmuş səfirə Kvemo Kartlinin potensialı və görüləcək işlərin gələcək planları barədə məlumat verib. Görüşdə Türkiyə İnkişaf Agentliyinin (TİKA) rəhbəri Hüseyin Şanlı və Kvemo Kartli qubernatorunun müavini Kaxa Koberidze də iştirak edib. Görüşdən sonra Fatma Ceren Yazqan Marneuli rayonuna səfər edib.

*(davamı 3-cü səhifədə)*



## MİXEİL CANELİDZE: "TÜRKİYƏ VƏ AZƏRBAYCAN GÜRCÜSTAN ÜÇÜN ÇOX VACİB ÖLKƏLƏRDİR"

"Türkiyə və Azərbaycan Gürcüstan üçün çox vacib ölkələrdir", - bunu Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze yerli İctimai televiziya kanalında yayımlanan "Həftənin müsahibəsi" verilişində deyib.

O bildirib ki, hər iki ölkə Gürcüstanın strateji tərəfdaşıdır: "Biz regional və çox əhəmiyyətli layihələr həyata keçiririk və əməkdaşlığımız yalnız üç ölkəni deyil, bütün region və Avropanı əhatə edir".

M. Canelidze Gürcüstanın Azərbaycanla çoxtərəfli formatda əməkdaşlıq etdiyini vurğulayıb: "Biz "Şərq tərəfdaşlığı" proqramında iştirak edirik və demokratik institutlar və Avropa ilə münasibətlər üzrə çalışırıq".



XİN başçısı qeyd edib ki, Gürcüstan qonşu, dost və tərəfdaş ölkələrdəki daxili siyasi proseslərin qiymətləndirilməsində iştirak etməli deyil.

## GÜRCÜSTAN HÖKUMƏTİ 2018-Cİ İLİN DÖVLƏT BÜDCƏSİNDƏN DİNİ İCMALARA 4,5 MİLYON LARİ VƏSAİT AYIRIB

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin verdiyi xəbərə əsasən, ilkin mərhələdə vəsaitin 3,5 milyon larisi dini icmalar arasında bölünüb. Bölgüyə əsasən 2,2 milyon lari məbləğində vəsaitin ən böyük hissəsi Gürcüstanın müsəlman icması üçün nəzərdə tutulub. Ermәni xristian icmasına 600 min lari, Roma katolik icmasına 400 min lari, yəhudi icmasına isə 300 min lari vəsait ayrılıb. Yerdə qalan 1 milyon lari məbləğində vəsaitin bölgüsü isə daha sonra aparılacaq.

Qeyd edək ki, Gürcüstan hökuməti hər il dini icmalara onların sovet dövründə məruz qaldıqları ziyanın ödənilməsi məqsədilə kompensasiya ödəyir.

Gürcüstanda əhalinin 10,74%-i İslam dininə etiqad edir.



## PUL XƏRCLƏMƏK MƏDƏNİYYƏTİ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

***Biz nəyə pul xərcləyirik?.. Biz siqaretə (yeri gəlmişkən siqaretin qiyməti 10 tetri bahalaşıb), spirtli içkiyə (lap elə spirtsiz olsun, insana ziyan verən o qədər içki var ki), qumara (totalizatorlardan tutmuş küçələrdə, tinlərdə, çayxanalarda oynanılan qumara), bahalı (amma zövqsüz) geyimlərə, bahalı avtomobillərə (hələ, o yol sənin, bu yol mənim, səhərdən axşama kimi o bahalı maşınların yandırdığı bahalı benzin də var), mərtəbə-mərtəbə evlərə, "abliçovkalı" (dilimizdə buna üz örtüyü deyilir) hasarlara, toya, qızıla, cehizə; lap elə yasa da; adna axşamlarına, qırx mərasimlərinə, baş daşlarına və sair, və ilaxır. Burda dayanıram. Siyahını uzatmaq da olar. İstəsəniz özünüz də artıra bilərsiniz.***

Bəs biz nəyə pul xərcləmirik?.. Kitaba, qəzetə, jurnala, dəftərə. Bəli! Dəftərə! Burda bir haşiyə çıxsam niyə dəftəri kitabdan sonra yox, jurnaldan sonra yazdığım aydın olar. İki il orta məktəbdə müəllim işləmişəm, oradan bilirəm. 40 tetrilik dəftəri bəzi şagirdlər güc-bəlayla alırdılar. Günah şagirddə deyil, günah üzərində maral şəkli olan iki gümüşü 20 tetridə də deyil. Sadəcə biz dəftərə pul xərcləmək istəmirik. Sonra?.. Biz biletə pul xərcləmirik. Kinoteatra getmirik, sirkə getmirik, teatra getmirik. Teatr demiş, Tiflisin köbəyində Azərbaycan teatrının mövcudluğundan çoxumuzun xəbəri belə yoxdur. Ticarət mərkəzlərini isə qapı-qapı gəzirik. Xəbəri olanlar da teatra getmirlər. Bunu son göstərilən tamaşalara əsaslanaraq yazıram. Zalda beş nəfər tamaşaçı vardı, qalanı teatrın işçiləri, aktyorlar idi. Ümumiyyətlə, bizdə tamaşa aktyorlar üçün göstərilir, kitab yazarlar üçün təqdim olunur, rəsm sərgisi rəssamlar üçün təşkil edilir. Bir sözlə, özümüz çalıb, özümüz oynayırıq. Halbuki onlarda (kimləri istəyirsiniz nəzərdə tutun) tamaşa (statusundan, dinindən, siyasi baxışından, cinsindən asılı olmayaraq) tamaşaçı üçün, kitab təqdimatı oxucu üçün, sərgi bütün insanlar üçün təşkil edilir. Çünki onlar (yenə kimləri ürəyiniz istəyir nəzərdə tuta bilərsiniz) teatra, kinoya, kitaba, rəsm əsərinə; rəsm əsəri demişkən, evladları üçün karandaşlara, boyalara, kağıza, kətana pul xərcləyirlər. Biz nəinki xərcləmirik, heç belə bir niyyətimiz də yoxdur. İmkanımız var, istəyimiz yoxdur. Bahalı televizoru ala bilirik, bahalı divar kağızlarına pul verə bilirik, amma kiçik bir rəsm əsərini alıb divarımızdan asmırıq. Biz istəsək evladlarımızın ad qoyma, sünnət, toy mərasimlərinə xərclədiyimiz pulu onların təhsilinə xərcləyərik. Biz istəsək iki, üç mərtəbəli, hər mərtəbəsində hamam, tualeti olan evlərimizin bir küncündə kitablarla dolu kitab rəfləri də yerləşdirə bilərik. Biz istəsək evladlarımızı küçələrə, çayxanalara yox, dil, musiqi, rəsm kurslarına, məktəblərə, universitetlərə göndərərik. Yanımıza salıb qız bəyəndirmək üçün toylara deyil, muzeylərə apararıq. Amma istəmirik. İstəyənləri də lağa qoyub gülürük. Əsl gülən isə sonda gülür deyirlər.

Heç görmüsünüz bizlərdən biri köşkə yaxınlaşıb qəzet ala? Mən görməmişəm. Siqaret alan, saqqız alan, günəbaxan tumu alan görmüşəm, qəzet alan görməmişəm. Bu sadaladıqlarımın arasında qəzet ən ucuzudu. Bizdə qəzeti də özümüz yazıb özümüz oxuyuruq. Oxuyanlarımız da pulsuz paylanır deyə oxuyurlar. Axı nə zamana kimi qəzetlər, kitablar pulsuz paylanılmalıdı? Tamaşalar pulsuz göstərilməlidi? Çəkdiyiniz siqaretin zibilə atdığınız qutusu qədər dəyəri yoxdurmu bunların?

Yaşadığımız bölgədə çayxanaların sayı kitabxanaların sayından çoxdu. Qardabanidə bir dənə də olsun kitab mağazası yoxdur. Halbuki addımbaşı mağazadı və kitabdan başqa nə istəyirsən satılır. Biz istəsək çayxana əvəzinə kitabxanalar açardıq. Xaricə işləmək üçün gedən gənclərimizin sayı xaricdə təhsil almaq üçün gedən gənclərimizin sayından çoxdu. İstəsək əksinə də ola bilər. Biz hətta evladlarımızı oxudanda da pulu düşünürük. Yiyələnəcək peşəni özümüz təyin edirik, fakultəni özümüz seçirik. Bizim mədəniyyət sahəsində təhsil alan tələbələrimiz bir-iki nəfərdi. Halbuki böyük şairimiz mədəniyyəti qılıncdan daha qüvvətli hesab edirdi. Pul xərcləmək özü də mədəniyyətdir. Gəlin pulumuzu mədəni xərcləyək. Axı siz o pulları min bir əziyyətlə qazanırsınız. Məsələn, imkanı olmayan hansısa bir xəstənin həyatını xilas etmək üçün. Məsələn, Knyaz kimi...

P.S.

Onun 21 yaşı var. O, bu yaşda deyib-gülməli, dostları ilə oturub-durmalı, zarafat etməli, bizim kimi yaşamalıdır. O bunları edirdi, amma indi zarafat edə, ürəkdən deyib-gülə bilmir. Çünki Knyazın ürəyi buna imkan vermir. Ona yeni ürək köçürülməli idi ki, yenidən gülümsəyə bilsin.

Ürək çatışmazlığı diaqnozu qoyulan Knyaz Əliyevin ürək əməliyyatı üçün yüz min dollardan artıq pul lazım idi. Bir nəfər üçün bu böyük məbləğdi, amma bu məbləği icmamız arasında bölsək elə də böyüklüyü qalmır. Bu, həm də bir növ millətimiz qarşısına qoyulan sınaqdı, imtahandı və Allah bu sınaqdan üzü ağ çıxmağı bizlərə nəsib etdi.

Həmişə yarım milyon olduğumuzu fəxrlə deyirik. Bu dəfə bu fəxarət hissi təkcə dillərdə deyil, həm də ürəklərdə, özü də ürəklə çırpındı. Ən gözəl xərclənən pul da məhz həyat üçün xərclənən puldur.

***Knyaz üçün edilən yardımlar, cavanından qocasına hamının bir nəfər kimi səfərbər olması insanlığın hələ yaşadığının göstəricisidir. Biz istəsək həm də bu cür birləşə bilərik demək. Pulumuzu həm də bu cür xərcləyə bilərik demək. Bu çox gözəldi. Adam az qalır bütün milləti bağrına basa, qucaqlaya, təşəkkür edə. Bu cür birləşən bir millət həqiqətən də təşəkkürə və var olmağa layiqdir. Knyazın ürəyi bizi birləşdirdi, həmrəy etdi, Knyazın yeni ürəyi də qoy bayrama çevrilsin, onun tezliklə sağalıb vətənə üzündə təbəssümlə qayıtmasını da hamımız bayram edək inşallah.***

## TBİLİSİDƏ TRANZİT DAŞIMALAR ÜÇÜN CƏRİMƏ 20 LARİDƏN 500 LARİYƏ QƏDƏR ARTACAQ

Tbilisi meri Kaxa Kaladzenin verdiyi məlumatda paytaxtda tranzit hərəkət üçün cərimənin 20 laridən 500 lariyə qədər artacağı bildirilir. Bu haqda Kaladze bələdiyyənin hökumət iclasında bildirib. Onun sözlərinə görə, 20 larilik cərimələr effektli olmadığı üçün sürücülər tez-tez qaydanı pozurlar.

"Xatırladaq ki, Tbilisidə, eləcə də böyük şəhərlərdə tranzit hərəkət qadağandır. Cərimə kiçik olduğuna görə, sürücülər bu qaydanı rahat pozurlar. Səhv etmirəmsə, bu gün bu cərimə 20 laridir. Biz düşünürük ki, bu, 500 lariyə qədər artmalıdır. Bu, bizim işlədiyimiz qanunvericilik dəyişiklikləri paketində artıq var və Parlamentə təqdim olunacaq", – deyə Kaladze bildirib.

## REZERV XİDMƏTİNİN REFORMALARI HAQQINDA QANUNLAYİHƏ PARLAMENTƏ TƏQDİM OLUNUB

Hökumətin rezerv xidməti reformalarını nəzərdə tutan qanunlayihəsi Gürcüstan Parlamentinə təqdim olunub. Qanunlayihəyə əsasən, iki tip rezerv yaradılacaq: aktiv rezerv və mobil rezerv.

Aktiv rezerv xidməti könüllü olacaq və 5 il müddətinə müqavilə bağlanacaq. 5 illik dövr isə ümumi əmək stajı hesab olunacaq. Qanunlayihəyə əsasən, aktiv rezervdə olan şəxsə hər ay əmək haqqı olaraq onun vəzifə gəlirinin 20%-i, çağırış və hərbi xidmət keçdiyi dövrdə isə əmək haqqı tam olaraq veriləcək.

Rezervin ikinci tipi mobil rezerv aktiv rezervdən fərqli olaraq məcburidir və onun məqsədi hərbi qüvvələrin gücləndirilməsi və itkilərin doldurulmasıdır.

Mobil rezerv halında hərbi rezerv xidmətində olan şəxsin hərbi xidmət hissəsində olması, hərbi rezerv xidmətini keçdiyi dövr hesab edilir (İldə 45 gündən çox olmadan). Əmək haqqı isə yalnız işə qəbul olunduğu halda veriləcək. Mobil rezervə 18-dən 60 yaşa qədər vətəndaşlar qəbul oluna bilərlər.

## PATRUL POLİSİNƏ ELEKTRİK VƏ HİBRİD AVTOMOBİLLƏR VERİLİB

Yaponiya hökuməti qrant müqaviləsi əsasında Gürcüstanın Daxili İşlər Nazirliyinə "Mitsubishi" markalı 45 hibrid və 51 elektrik avtomobil təqdim edib. Hibrid avtomobillər Tbilisi patrul polisinə, elektromobillər isə DİN-nin müxtəlif departamentlərinə veriləcək.



Avtomobillərin təqdim olunması mərasimində çıxış edən Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili ölkənin uğurunun polisin fəaliyyətinin uğurundan çox asılı olduğunu deyib: "Polis sistemində bir sıra yenilik və planların həyata keçirilməsi nəzərdə tutulub. Əminəm ki, onlar uğurla həyata keçiriləcək".

Daxili işlər naziri Giorgi Qaxariya isə, Gürcüstan polisinin fəaliyyətini daha effektiv etmək üçün islahatlara başlanıldığını qeyd edib.

"Yaponiya hökuməti tərəfindən təqdim olunmuş avtomobillər polis xidmətinin keyfiyyətini artıracaq", - deyə Qaxariya vuğulayıb.

Tədbirdə Gürcüstan parlamentinin üzvləri, Tbilisi meri, Yaponiyanın Gürcüstandakı səfiri və digər rəsmi şəxslər iştirak ediblər.

## HÖKUMƏT QARA "CİP"LƏRDƏN İMTİNA EDİR

"Gürcüstanda qara rəngdə olan "cip"lərin dövrünə son qoymaq zamanı yetişib", - bunu Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclasında deyib.

Hökumət başçısı bildirib ki, qara rəngli avtomobillər onu və hər kəsi qıcıqlandırır: "Hökumət administrasiyasının avtomobil parkındakı qara maşınları ekoloji təmiz maşınlarla əvəz etmək lazımdır. Bunu yalnız hökumət deyil, güc strukturları da etməlidir. Heç yerdə yazılmayıb ki, güc strukturları mütləq qara "cip"lərdən istifadə etməlidir. Bu prosesə nazirliklərdə başlanacaq. Buna birdən başlaya bilmərik, belə ki, böyük maliyyə tələb olunur".

G. Kvirikaşvili qeyd edib ki, protokolun tələb edəcəyi halda, istisnalar mümkündür: "Beynəlxalq təşkilatlar ağ rəngli maşınlardan istifadə edir. Biz mərhələli şəkildə qara rəngli "cip"-lərin istifadəsindən imtina etməliyik".

## DİNİ AGENTLİK BRAYL ŞRİFTİ İLƏ TƏQVİM HAZIRLAYIB

2018-ci ilin 17 yanvar tarixində, Gürcüstan Hökumət Administrasiyasında Dini Məsələlər üzrə Dövlət Agentliyi Brayl şrifti ilə çap olunmuş inter-dini təqvimi təqdim edib.

Dini Agentlik artıq 4 ildir ki, inter-dini təqvim hazırlayır, ancaq bu il yeni format əlavə olunub – təqvim Brayl şrifti ilə nəşr olunub və görmə qüsuru olanlar üçün də nəzərdə tutulub.

Brayl şrifti ilə çap olunan təqvim Görmə Qüsurlu şəxslər İttifaqının üzvlərinə hədiyyə olaraq verilib. Təqvimin hər il Brayl şrifti ilə nəşr edilməsi nəzərdə tutulur.

# TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRİ BÖLGƏLƏRƏ SƏFƏR EDİB

*(əvvəli 1-ci səhifədə)*

Səfir Marneuli rayonunun icra başçısı Temur Abazovla görüşüb. Tərəflər qarşılıqlı münasibətlərin dərinləşdirilməsi məqsədilə görüləcək işlər, gələcək planlar, rayonda mövcud investisiya imkanları və digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

"Gürcüstanın hər bölgəsi Türkiyə üçün çox önəmlidir. Amma Tblisiyə ən yaxın olması, əkin sahələri, turizm potensialı, sənaye potenisialının olmasına görə Kvemo Kartli bölgəsinə gəldim. Rustavidə cənab qubernatorla görüşdüm. İndi də hörmətli merlə görüşdük. Bu mənim Tblisidən kənarda ilk səfərimdir və araşdırma mərhələsindəyəm. Gürcüstandakı potensialı öyrənməyə çalışıram. Burada ayrıca türkcə danışan Gürcüstan vətəndaşları var. Dolayısı ilə, bu bölgəni tanımaqdan məmnun oldum və çox gözəl mənzərəli, çox gözəl bir ölkədir Gürcüstan. Marneuli də ölkənin çox gözəl bir parçasıdır", – deyə səfir Marneuli radiosuna bildirib.

Marneulinin icra başçısı Temur Abazov radioya bildirib ki, Türkiyə səfiri gələcəkdə sərmayə yatırılması barədə də söhbət açıb: "Görüş məlumat xarakteri daşıyırdı. Biz gələcək planlardan danışdıq. Həmçinin Fatma xanım tərəfindən gələcəkdə sərmayə qoyulması barədə təklif irəli sürüldü. Bu ilk görüş idi. Görüşlər davam edəcək, işgüzar xarakterli görüşlər olacaq və daha konkret hədəflər barədə söhbət edəcəyik".

Səfir Marneulinin II Kosalı kəndindəki mədrəsəyə də baş çəkib. Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının rəhbəri Musa Hacıyevin verdiyi məlumata əsasən, səfirə mədrəsədə həyata keçirilən təhsil və təlim-tərbiyə proqramları ilə bağlı ətraflı məlumat verilib.

Bundan əlavə, səfir Marneulidə fəaliyyət göstərən Ziraat Bankını, Təkəli kəndində TİKA tərəfindən inşa edilmiş məktəbi və Lejvəddin məzarlığını da ziyarət edib.

# ƏRDOĞAN: "PAPA FRANSİSK "ERMƏNİ SOYQIRIMI" İLƏ BAĞLI TÜRKİYƏNİN MÖVQEYİ İLƏ HƏMRƏYDİR"

Türkiyə qondarma "erməni soyqırımı" ilə bağlı ermənilərin iddiaları ilə əlaqədar Vatikana öz narazılığını bildirib.

Bunu Vatikana səfərinin yekununda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Ərdoğan bildirib: "Papa Fransisk "erməni soyqırımı" ilə bağlı Türkiyənin mövqeyi ilə həmrəydir".

Xatırladaq ki, Türkiyə prezidenti R.T. Ərdoğan fevralın 5-i Vatikana rəsmi səfər edib. Səfər çərçivəsində Ərdoğanın Roma Papası Fransisk və digər rəsmilərlə keçirdiyi görüşlərdə Türkiyə-Vatikan münasibətləri, Qüds məsələsi, regional problemlər, Suriyada yaşanan hadisələr, terrorla mübarizə kimi mövzular müzakirə edilib.



Qeyd edək ki, Ərdoğanın bu səfəri 59 illik fasilədən sonra Türkiyədən Vatikana prezident səviyyəsində edilən ilk ziyarət hesab olunur. Vatikanı ziyarət edən ilk Türkiyə prezidenti isə Calal Bayar (1959-cu il) olub.

# SURİYA MÜNAQİŞƏSİNİN HƏLLİNƏ DAİR ÜÇTƏRƏFLİ DANIŞIQLARIN NÖVBƏTİ RAUNDU İSTANBULDA KEÇİRİLƏCƏK



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Dövlət başçıları Suriya böhranını müzakirə ediblər. Rusiya, Türkiyə və İran prezidentlərinin Suriya münaqişəsinin həllinə dair üçtərəfli danışıqlarının növbəti raundunun İstanbulda keçirilməsi qərara alınıb.

Xatırladaq ki, üç ölkə liderlərinin ilk sammiti Soçi şəhərində keçirilmişdi.

# SOCAR 52 MƏSCİDİ PULSUZ QAZLA TƏMİN EDƏCƏK

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstandakı törəmə şirkəti olan "Socar Georgia Gas" daha 13 məscidi təmənnasız qazla təmin edəcək.

Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) şeyxi Ramin İgidovun verdiyi məlumata əsasən, bununla bağlı "Socar Georgia Gas" şirkəti ilə razılıq əldə olunub: "Təmənnasız qazla təmin olunan məscidlərin sayı 52-yə çatdı. Məscidlər 87 200 lari məbləğində qazdan təmənnasız istifadə edə biləcəklər".

Qeyd edək ki, ötən il GMİ və "SOCAR Georgia Gas" şirkəti arasında 39 məscidin təmənnasız qazla təmin olunması ilə bağlı müqavilə imzalanıb.

Gürcüstanda 320 məscid var və onlardan 180-i GMİ-nin tabeliyindədir.

# DÜNYAYA İNSANLIQ DƏRSİ



Hacı Bəkiroğlu
*hacibakir@mail.ru*

***İnsanlıq tarixi boyunca olduğu kimi bu gün də heç bir cəmiyyətdə ortaq bir həyat və gələcəyi paylaşan insanlar eyni səviyyədə deyil. Zəifi, güclüsü, kasıbı, zəngini, kişisi, qadını... ilə insan birlikləri həm bir təzad, həm də bir ahəng meydana gətirməkdədir. Təbiətdəki bu başqalıq, bu təzad, bir hərəkətin qaynağını meydana gətirir ki, buna, "həyat" deyirik.***

Elə yaradılışdan gələn bu fərqliliklə, həyatın içində yoğrulan insanlar şübhəsiz bir-birlərinə ehtiyac duymaqdadırlar. Bir çox və dəyişik mövzuda zəngin kasıba, güclü zəifə müraciət etmək məcburiyyətində qalmaqdadır. Heç bir zəngin, "Mənim kimsəyə ehtiyacım yoxdur" deyə bilməz. Çünki sərvətini işlətdiyi insanların gücü ilə qazanar; "Mənim pulum var, kimi istəsəm işlədərəm" deməsi bu gerçəyi dəyişdirməz. Çünki kimi işlədirsə ona möhtac olur deməkdir.

Nəticə etibarilə hansı tərəfə baxarsaq baxaq, bütün ictimai əlaqələrdə belə vəziyyətlərlə qarşılaşarıq. Bütün insanların istər-istəməz bir başqasının gücünə, puluna, fikrinə möhtac olduğunu görərik. Hasili bütün insanlar bir şəkildə bir-birinə möhtacdır.

İnsanların belə bir-birinə möhtac olmaları, qarşılıqlı olaraq köməkləşmələri zəruriliyini ortaya çıxarmaqdadır. Köməkləşmə, cəmiyyət halında yaşamanın təbii bir nəticəsidir. Həm başqaları ilə yaşamaq, həm köməyə ehtiyac duymamaq qeyri-mümkündür. Bunun üçün İslamiyyət köməkləşməyi, bütün maddi və mənəvi həyatımızı əhatə edəcək şəkildə ən geniş sərhədləri ilə ələ almış və dini-əxlaqi bir vəzifə olaraq ortaya qoymuşdur. Qurani Kərimin bir çox ayəsində bu mövzuya təmas edilərək, müsəlmanlar köməkləşməyə təşviq edilmişdir. Hz. Peyğəmbər də (s.ə.s) saysız hədislərində maddi və mənəvi köməyin insan həyatındakı əhəmiyyətini dilə gətirmişdir.

Kömək anlayışının özündə fədakarlıq vardır. Maldan sevgiyə qədər hər şeydən bir başqasına verilməsi şəklində fədakarlıq söz mövzusudur. Bu fitrədə olduğu kimi məcburi olsa da, çox vaxt tamamilə istəyə bağlıdır. Yenə zəkat müəyyən bir miqdarda alındığı halda sədəqənin sərhəddi yoxdur. Diləyən dilədiyi qədər verər. Beləcə müsəlmanlar arasında ən geniş mənada köməkləşmə edilər. Bu maddi köməyin xaricində, müsəlmanlar başqalarına söz və davranışları ilə də yaxşılıq etmək, onlara sevgi ilə bağlanmaq məcburiyyətindədirlər. Bu da onların vəzifəsidir.

Heç bir yaxşılıq edə bilməyən bir müsəlmanın əli və dili ilə başqalarına zərər verməməsi belə yaxşılıq (sədəqə) sayılmışdır.

Bunların hər biri təbii ki, Allahın bir imtahanıdır. Bu yaxınlarda Allah xalqımızı belə çətin və məsuliyyətli bir imtahana çəkdi. Gənc bir qardaşımız olan Knyaz Əliyevin xəstəliyi bizim millət olaraq bir sınağımız oldu. Çox şükür ki, millət olaraq bir yumruğa çevrilməyi və birlikdə hərəkət etməyi bacardıq. Bu birlik və bərabərliyimiz dünyaya və insanlığa bir örnək oldu. Dünyanın dörd bir yanında baş verən qırğınlarda insan həyatı heçə sayılarkən, bizlər bir insanı yaşatmağa çalışdıq. Bu da millət olaraq insanlığa verdiyimiz dəyərin əhəmiyyətini göstərdi.

Qocasıyla–gənciylə, qadınıyla–kişisiylə əl-ələ verib bu mücadiləmizi yürütdük. Kimsə bu şəxs Qardabanidəndir qardabanlılar kömək etsin demədi. Qardabani, Marneuli, Bolnisi, Dmanisi, Kaxeti demədən hər bölgədən, hətta Türkiyədən, Azərbaycandan, Rusiyadan və digər ölkələrdən belə dəstək gəldi. Milliyət söhbətinə belə yer buraxılmadı. Vətəndaşlarımız gürcü milləti sağ olsunlar, böyük dəstək oldular. Bu millətin gələcəyi olan gənclər böyük əzmkarlıq göstərdilər. Tələbələrin özləri dəstək aldığı halda, əllərində, ovuclarında olanları yığıb dəstək oldular. Bu da bir daha göstərdi ki, insanlıq yaşayır. Kütləvi informasiya vasitələri belə bu dayanışmanı dünyaya böyük qürurla təqdim etdilər.

***İstər maddi, istərsə də mənəvi dəstək olan hər kəsdən Allah razı olsun. Bundan belə sadəcə Allaha dua etməkdən başqa yolumuz qalmır. Dua edək ki, uğurlu bir əməliyyat olsun və sağ-salamat evinə ailəsinə dönsün.***

# MÜLKİ PROQRAMLAR MƏSƏLƏSİ ÜZRƏ İLİA DÖVLƏT UNİVERSİTETİNİN REKTOR MƏSLƏHƏTÇİSİ MERAB BASİLAİANIN "YENİ YOL" QƏZETİNƏ VERDİYİ MÜSAHİBƏ



**- Cənab Merab, istərdim ki, ilk olaraq ümumilikdə Gürcüstanda qeyri-gürcü dilli gənclərin dövlət tədris müəssisələrinə qoşulmasını dəyərləndirəsiniz. Bu məsələ ilə bağlı ilk əvvəl vəziyyət necə idi?**

- Əgər Gürcüstanda qeyri-gürcü dilli gənclərin ali təhsil müəssisələrinə qoşulmasından danışırıqsa, qeyd edim ki, 2010-cu ildə burada vəziyyət çox ağır idi. Mən Sovet dövrünə toxunmayacam. Faktdır ki, müstəqillik illərində müvafiq səviyyədə gürcü dilini bilməyən gənclər üçün çox ağır vəziyyət yarandı. Məsələn, İlia Dövlət Universitetində 2009-cu ildə praktiki olaraq Gürcüstan vətəndaşı olan və etnik azlıqların kompakt yaşadığı regionlardan gənclər yox idi. Burada əsasən Kvemo Kartli və Samtsxe Cavaxeti nəzərdə tutulur.

**- Sonra vəziyyət dəyişdimi və bu dəyişikliyə nə səbəb oldu?**

- 2010-cu ildə 1+4 proqramı formatında vəziyyət dəyişdi. 2010-cu ildə bizim 4 və ya 5 qeyri-gürcü dilli tələbəmiz var idi. Onlar bizim üçün gürcü dilini müvafiq səviyyədə bilməyən tələbələrdir. Ona görə də 1+4 akademik proqramı bu boşluğu doldurmağa istiqamətlənib və tələbənin dil kompetensiyasını bir il ərzində sərbəst şəkildə, başqa tələbələr kimi birdən dördüncü kursa qədər akademik proqramları başa çıxa biləcək səviyyəyə qədər aparmalıdır. Eləcə də tələbənin istəyi olarsa magistratura və doktoranturada təhsilini davam etdirə bilər.

**- 1+4 proqramının məqsədi nədir və konkret olaraq İlia Dövlət Universiteti bu proqramı necə həyata keçirir? Hansı məqsədləriniz var?**

- Bu halda iki məqsəd var. Bizim məqsədimiz dövlətin məqsədidir. Bu, zamanında baş vermiş böyük pozuntu idi ki, Gürcüstanda nəyə görəsə gənclərin maneələri olurdu və təhsilin əlçatan olmasında problem yaranırdı. Bu proqramla tələbə ana dilində ümumi bacarıqlardan bir imtahan verir və bildirir ki, məsələn, azərbaycan dili onun ana dilidir. Bu məktəblərə bağlı deyil. Tələbə hansı məktəbi bitirsə də, ancaq vurğulaya bilər ki, onun ana dili azərbaycan, erməni, abxaz və ya osetin dilidir. Hələ ki, bu layihələrin hamısı praktiki olaraq azərbaycanlı və erməni gənclər üçün həyata keçirilir. Bizim universitetdə yalnız bir hal olmuşdu ki, osetin dilli tələbə qəbul olmuşdu və bu günə qədər təhsil alır. Akademik məqsəd tələbəni səmərəli təhsilə malik olacağı dil səviyyəsinə qaldırmaqdır. İkinci məqsəd universitet həyatına inteqrasiyadır. Bu nə deməkdir? Universitetə daxil olan gənc çox böyük, yeni reallıq qarşısında qalır. Yalnız universitet deyil, şəhər də yeni olur. Bəzi tələbələr kəndlərdən, regionlardan gəlirlər və onlar üçün şəhər də yad olur. Buna müəyyən dəstək lazımdır. Bizim universitetin belə bir məqsədi var ki, tələbəyə yalnız universitetə deyil, şəhərə də inteqrasiya olmaqda dəstək olaq. Bu demək deyil ki, yalnız azərbaycanlıların belə problemi var. Bu, şəhərə uyğunlaşmamış bütün tələbələrin problemidir.

**- Siz qeyd etdiniz ki, tələbələrə inteqrasiyada kömək edirsiniz. Bunu necə edirsiniz, hansı üsullarınız var?**

- Biz proqramları elə qururuq ki, tələbələrə inteqrasiyada dəstək olaq. İkinci prioritetimiz odur ki, biz layihəni nəyinsə gürcü dilli və nəyinsə qeyri-gürcü dilli tələbələr üçün ayrılmasına dair bölmürük. Məqsədimiz odur ki, bütün layihələr bütün tələbələr üçün həyata keçirilsin. Universitetdə belə bir yanaşma yaratmaqda ilk addım atan da biz olduq. Dilə görə ayrı-seçkilik salmaq tələbələrin vətəndaş intqrasiyasına mane olur. Ona görə də, bizdə tələbə ilk gündən hər dildə tələbələrin olduğu mühitə daxil olur. İkincisi, biz 1+4 proqramı səviyyəsində akademik hissəyə inteqrasiya proqramı da daxil etmişik. Yəni vətəndaş təhsili, vətəndaş inteqrasiyasının artması ilə birgə tələbə bunun üçün akademik qiymət alır. Bu üsul artıq tanınıb və bildiyimə görə başqa universitetlər də bu prinsipə keçirlər. Üçüncü və əsas olan odur ki, 1+4 proqramından keçən tələbələrin artıq dil və uyğunlaşma problemi olmamalıdır. Onun ilk dil kompetensiyasına baxmayaraq o, artıq tələbəyə uğurlu olmaqda dəstək olan bacarıqlara uyğunlaşmalıdır.

**- Akademik hissədən sonra vəziyyət necə olur? Etnik tələbələr təhsili necə davam etdirirlər?**

- Təəssüf ki, bizim universitetdə 30% tələbələr bir il ərzində layihəni başa vura bilmirlər və ikinci dəfə keçməli olurlar. Belə bir məsələ var idi ki, asanlaşdıraq və onlar bakalavr səviyyəsinə keçsinlər. Bizim qəti yanaşmamız belədir ki, akademik hissədə heç bir güzəşt olmamalıdır. Bu özünü aldatmaqdır. Əgər biz tələbəni akademik hissəni sərbəst şəkildə bitirmək səviyyəsinə qədər apara bilmiriksə, bu o deməkdir ki, biz həmin tələbəni də, özümüzü də aldadırıq. Ona görə də təssüflə qeyd edirəm ki, 25-30% proqramı başa vura bilmir. Amma onların dil səviyyəsi universitetə daxil olduqları səviyyə ilə müqayisədə yaxşılaşır. Kim qərar verirsə ki, proqramı ikinci dəfə keçməlidir onlar 100% bakalavr səviyyəsinə qəbul ola bilirlər.

**- Bakalavr səviyyəsinə qəbul olduqdan sonra dərsdə iştirak edirlərmi və hansı istiqamətləri seçməyə üstünlük verirlər?**

- Bizdə artıq hər il 100-110 tələbə bakalavr səviyyəsinə keçir. Bizə məlum olduğuna görə, əsasən böyük populyarlıqla biznes məktəbi, mühəndislik və məni çox sevindirən pedaqogika fakultəsi üstünlük təşkil edir. Gənclər gürcü dilini öyrənməyi və müəllim olmağı özlərinə məqsəd götürürlər. Hüquq fakultəsinə də böyük maraq var. Humanitar istiqamətdə maraq daha çoxdur, mühəndislik azdır. İstərdik ki, bu istiqamətdə də tələbələr təhsil alsın.

**- Etnik gənclərin gürcü universitetlərində təhsi alması nə dərəcədə vacibdir və bunların hamısından sonra onlar bir-birinə inteqrasiya olurlarmı? Konkret olaraq İlia Universitetində necədir?**

- Bir daha qeyd edirəm ki, biz universitet işlərimizdə məsələni etnik mənsubiyyətə görə qoymuruq. Universitet üçün gürcü dilini yetərli səviyyədə bilməyən tələbə vacibdir. Əlbəttə biz başa düşürük ki, Gürcüstanda yaşayan etnik azərbaycanlıların universitetə daxil olması dövlətin məqsədidir. Biz bu gün azərbaycan dilli və erməni dilli gənclərin universitet həyatına inteqrasiyasını bacarmırıqsa, deməli biz dövlət məqsədini yerinə yetirə bilmirik. Problemlər də mövcuddur. Biz hələ ki, gənclərdə qruplaşmaya tam qalib gələ bilməmişik. İli Universitetinin məqsədi, yanaşması belədir ki, bütün dillərdə danışan tələbələr birlikdə olsunlar. Bu, dil və inteqrasiya baxımından daha yaxşıdır.

**- Proqramlar və layihələr nəticəsində gənclərdə bu problem nə dərəcədə həll olunur?**

- 100%-lik nəticəmiz yoxdur. Bizim ehtimalımıza görə problemi 70-80% həll etmişik. Bizə birinci il tələbə qəbul olanda əsasən universitetə birgə daxil olduğu dostlarına bağlı olur. Yəni özünün dil qrupuna bağlı olur. İlin sonunda isə artıq belə olmur. Birgə layihələr, birgə ekskursiyalar, tədbirlər mühiti dəyişir. Buna tədris prosesi də dəstək olur. Bizdə azərbaycan dilli, erməni dilli və gürcü dillilər eyni sahədədir. Gənclərdə olan əsas problem odur ki, onlar öz dil biliklərinə inanmırlar. Gürcü dilli tələbələrlə ünsiyyətdə olanda onlar özlərinə daha çox inam qazanırlar. Əlbəttə ki, İli Universitetinin xüsusən işlədiyi akademik metodologiya da əhəmiyyət daşıyır. Məndə olan məlumata görə İlia Universitetinin professorları ilk ildən xüsusi dil proqramları üzərində çalışmağa başlayıblar.

**- "Tutorium" proqramı haqqında na məlumat verərdiniz?**

-"Tutorium" universitetimizin qürürverici proqramıdır. Bu proqram ilk dəfə İlia Universitetində yaradılıb. Tutor, yəni gənclərin asistenti olan digər gənclərdir. Onlar həmin gənclərin əvəzinə çalışırlar. Bu onların həmyaşıdları olur və vətəndaş aktivliklərinin planlaşdırılması və həyata keçirilməsində tələbələrə kömək edir. Bizim 20-dən çox dil səviyyələri çox aşağı olan Azərbaycan və erməni dilli gəncimiz var idi. Bu gün onlar özləri artıq həmyaşıdlarının tutorlarıdır.

**- 2010-cu ildən bu günə qədər neçə etnik tələbə İlia Universitetində 1+4 proqramını keçib?**

- 2010-cu ildə 5 tələbə ilə başladıq. Sonra yavaş-yavaş 500 nəfərə çatdı. Hər il təqribən 100-110 tələbə daxil olur. Son iki ildə erməni dilli tələbələrin qəbulu azlıq təşkil edir və azərbaycanlı tələbələrlə bərabər deyil.

**Söhbətləşdi: Şəlalə Əmircanova**

# MÜƏLLİMLƏRİN BİR HİSSƏSİNİN MAAŞI ARTIB

Fevral ayının 1-dən aparıcı və mentor müəllimlərin əmək haqqı artıb. Aparıcı müəllim tam şəkildə çalışarsa 700 lari maaş alacaq, mentor isə - 1000 lari. Bu haqda Elm və Təhsil Nazirliyindən bildiriblər.

Müəllimlərin Milli Peşəkar İnkişaf Mərkəzinin direktor müavini Manana Ratianinin məlumatına görə, indiki mərhələdə 257 aparıcı və 9 mentor müəllim var.

Onun sözlərinə görə, aparıcı müəllimlərin əlavəsi 500, mentorların isə 700 lari idi.

"Ümumiyyətlə, müəllimin maaşı 405 larini təşkil edir, buna əlavələr də olur. Bu, sinif rəhbəri, direktor, magistr statusuna əsasən baş verir. Statusa əsasən təcrübəli müəllimin əlavəsi 320 lari, aparıcı müəllimin 500 lari, mentorlar üçün isə 700 laridir. Dəyişikliklərə əsasən isə aparıcı və mentorların əlavəsinin artırılması baş verdi", - Manana Ratiani bildirib.

Xatırladaq ki, müəllimlərin peşəkar inkişafı və karyerada irəli getmələri üçün sxem artıq iki ildir ki, qüvvədədir. Sxemə əsasən, pedaqoqlar 4 kateqoriyaya – təcrübəçi, rəhbər, aparıcı və mentor olaraq bölünürlər. Pedaqoqlara sxem imkan verir ki, kateqoriyada irəli getsinlər və müvafiq olaraq daha çox maaş alsınlar.

# ilias saxelmwifo universitetis reqtoris konsultanti samoqalaqo programebis sakiTxebSi merab basilaias interviu gazeT “ieni iol”-Tan

**– ბატონო მერაბ, მინდა ზოგადად შეაფასოთ საქართველოში არაქართულენოვანი ახალგაზრდების უმაღლეს სასწავლებლებში ჩართვის პროცესი. როგორი მდგომარეობა იყო დასაწყისში ამ საკითხთან დაკავშირებით?**

– თუ ჩვენ ვსაუბრობთ მთლიანად საქართველოში არაქართულენოვანი ახალგაზრდების ჩართვაზე უმაღლეს სასწავლებლებში, 2010 წლამდე ზოგადად აქ იყო ძალიან მძიმე მდგომარეობა. მე არ შევეხები საბჭოთა პერიოდს. ფაქტია, რომ დამოუკიდებლობის წლებში ძალიან მძიმე ვითარება შეიქმნა იმ ახალგაზრდებისათვის, რომლებიც სათანადოდ ვერ ფლობდნენ სახელმწიფო ენას. მაგალითად, ილიას სახელმწიფო უნივერსიტეტში 2009 წელს პრაქტიკულად არ იყვნენ ახალგაზრდები, რომლებიც საქართველოს მოქალაქეები იყვნენ და ცხოვრობდნენ ეთნიკური უმცირესობების კომპაქტურად დასახლებულ რეგიონებში. აქ ძირითადად იგულისხმება ქვემო-ქართლი და სამცხე ჯავახეთი.

**– შემდგომ როგორ შეიცვალა მდგომარეობა და რამ დაგვეხმარა ამ ცვლილებაში?**

– 2010 წელს 1+4 პროგრამის ფორმატში სიტუაცია შეიცვალა. ჩვენ 2010 წელს 4 თუ 5 არაქართულენოვანი სტუდენტი გვყავდა უნივერსიტეტში. ესენი ჩვენთვის არიან სტუდენტები, რომლებიც არ იციან ქართული ენა სათანადო დონეზე. ამიტომ 1+4 აკადემიური პროგრამა მოწოდებულია, რომ ეს ხარვეზი შეავსოს და სტუდენტი ერთი წლის განმავლობაში მიიღვანოს ენობრივი კომპეტენციის იმ დონემდე, რომელიც მას საშვალებას მისცემს, რომ თავისუფლად, ყველა სხვა სტუდენტივით შეძლოს აკადემიური პროგრამების დაძლევა უკვე პირველიდან მეოთხე კურსის ჩათვლით. ასევე თუ სურვილი ექნება სტუდენტს გააგრძელებს მაგისტრატურაში და დოქტორანტურაში თავისი სწავლა.

**– 14 პროგრამის ამოცანა რა იყო და კერძოდ ილიას უნივერსიტეტი როგორ ახორციელებს ამ პროგრამას? როგორი ამოცანები გაქვთ?**

– ორი ამოცანაა ამ შემთხვევაში. ჩვენი ამოცანა არის ასევე სახელმწიფოს ამოცანა. ეს იყო დიდი დარღვევა თავის დროზე. საქართველოში არ უნდა იყოს ახალგაზრდა მოქალაქე, რომელსაც რაიმეს გამო აქვს შეფერხება და პრობლემები ექმნება განათლების ხელმისაწვდომობაში. ამ პროგრამის მეშვეობით ერთი გამოცდით მშობლიურ ენაზე ადამიანი აბარებს უნარ-ჩვევებს და აცხადებს, რომ ვთქვათ აზერბაიჯანული არის მისი მშობლიური ენა. სხვათაშორის ეგ არ არის მიბმული სკოლებზე. ადამიანს ნებისმიერი სკოლა აქვს დამთავრებული, შეუძლია თქვას, რომ ჩემი მშობლიური ენა არის აზერბაიჯანული ასევე სომხური, აბხაზური და ოსური. პრაქტიკულად ჯერჯერობით ეს პროექტები ყველა ხორციელდება აზერბაიჯანულ და სომხურენოვანი ახალგაზრდების ფონზე. ჩვენს უნივერსიტეტში მხოლოდ ერთი შემთხვევა იყო როცა ოსურენოვანი სტუდენტი შემოვიდა და დღემდე სწავლობს. აკადემიური ამოცანაა სტუდენტი მიიღვანო ენის კომპეტენციის იმ დონემდე, რომ ის იყოს ხარისხიანი ცოდნის დაუფლების უნარის მქონე. ეს არის აკადემიური ამოცანა და მეორე ამოცანა ეს არის ინტეგრირება საუნივერსიტეტო სივრცეში. რას გულისხმობს ეს? ახალგაზრდა, რომელიც შემოდის უნივერსიტეტში დგება ძალიან ახალი რეალური სინამდვილის წინაშე. არამხოლოდ უნივერსიტეტი, ქალაქიც ახალია. ზოგი სტუდენტი ჩამოდის სოფლიდან, რეგიონებიდან და მათთვის ქალაქიც კი უცხოა. ამას სჭირდება გარკვეული ხელშეწყობა. ჩვენს უნივერსიტეტს ეს ამოცანა გვაქვს დასახული, რომ სტუდენტს დავეხმაროთ ინტეგრირებაში არამარტო საუნივერსიტეტო სივრცეში არამედ ქალაქშიც. ეს იმას კი არ ნიშნავს, რომ ეს პრობლემა მხოლოდ აზერბაიჯანლებს აქვს. ეს ყველა იმ სტუდენტს აქვს ვინც ჩამოდის და არ არის მიჩვეული ქალაქში ცხოვრებას.

**–თქვენ შეახსენეთ, რომ სტუდენტებს ასევე ეხმარებით ინტეგრირებაში. ამას როგორ აკეთებთ, როგორი მეთოდები გაქვთ?**

– ჩვენ პროგრამებს ისე ვაწყობთ, რომ ამ სტუდენტებს დავეხმაროთ ინტეგრირებაში. მეორე პრიორიტეტი გვაქვს, რომ ჩვენ არ ვყოფთ პროექტებს იმის მიხედვით, რომ რაღაცა უნდა გაკეთდეს ქართულენოვანებისთვის ან არაქართულენოვანებისთვის. ჩვენი მიზანი ის არის, რომ ყველა პროექტი ხორციელდება ყველა სტუდენტისთვის. ასევე ჩვენ პირველები ვიყავით, რომ შევქმენით უნივერსიტეტში ასეთი მიდგომა – არ შეიძლება სტუდენტების განცალკავება ენის ნიშნით. ეს აფერხებს მათ სამოქალაქო ინტეგრაციას. ამიტომ ჩვენთან სტუდენტი პირველივე დღიდან შემოდის იმ გარემოში, სადაც არის ყველა ენოვანი სტუდენტი. მეორე, ჩვენ 1+4 პროგრამით შევიტანეთ საინტეგრაციო პროგრამა აკადამიურ ნაწილშიც, ანუ სამოქალაქო განათლების, სამოქალაქო ინტეგრაციის ზრდასთან ერთად სტუდენტი ამაში იღებს აკადემიურ ნიშნებს. ეს მეთოდი უკვე აღიარებულია ძალიან წარმატებულად და სხვა უნივერსიტეტებიც, როგორც ვიცი გადადიან ამ პრინციპზე. მესამე და მთავარი ეს არის რომ 1+4-დან გადასულ სტუდენტს უკვე არ უნდა ჰქონდეს ენობრივი და ჩვევითი პრობლემა. მიუხედავად მისი თავდაპირველი ენობრივი კომპეტენციისა ის უკვე შეგუებული უნდა იყოს იმ უნარებს, რაც მას ხელს უწყობს, რომ იყოს წარმატებული სტუდენტი.

**–აკადემიური ნაწილის მერე მდგომარეობა როგორ არის? ეთნიკური სტუდენტები როგორ აგრძელებენ სწავლას?**

–სამწუხაროდ ჩვენთან უნივერსიტეტში 30% ერთი წლის განმავლობაში ვერ უძლევს პროექტს და მათ უწევთ მეორედ გასვლა. იდგა საკითხი, რომ ცოდა გავუადვილოთ და ისინი გადავიდნენ მაინც ბაკალვრის დონეზე. ჩვენი კატეგორიული მიდგომაა, რომ აკადემიურ ნაწილში არანაირი შეღავათი არ უნდა იყოს. ეს არის თავის მოტყუება. თუ ჩვენ სტუდენტი ვერ მივიყვანეთ იმ დონემდე, რომ თავისუფლად დაამთავროს აკადემიური ნაწილი ეს ნიშნავს, რომ ჩვენ მაგ სტუდენსაც და ჩვენს თავსაც ვატყუებთ. ამიტომ სამწუხაროდ 25%-30% 1+4 პროგრამიდან ვერ გადადის საბაკალავრო დონეზე. მაგრამ მათი ენობრივი კომპეტენცია საგმაოდ დიდია იმასთან შედარებით, თუ როგორ შემოვიდნენ უნივერსიტეტში. ვინც გადაწყვეტს, რომ მეორედ გაიაროს ეს პროგრამა ისინი 100%-ით ხვდებიან საბაკალავრო დონეზე.

**– საბაკალავრო დონეზე ჩაბარების მერე მოსწრება როგორ აქვთ? როგორ ირჩევენ მიმართულებებს?**

– ჩვენთან უკვე ყოველწლიურად 100-110 სტუდენტი გადადის საბაკალავრო დონეზე. რამდენადაც ჩვენთვის ცნობილია, ძირითადად ძალიან დიდი პოპულარობით სარგებლობს ბიზნეს სკოლა, საინჟინრო ფაკულტეტი და მე რაც მახარებს ეს არის პედაგოგიკური მიმართულება. ახალგაზრდები თავთან ამოცანად იღებენ, რომ შეისწავლონ ქართული ენა და თავად გახდნენ მასწავლებლები. ასევე სამართლის სკოლისკენ არის ძალიან დიდი ინტერესი. ჰუმანიტარული მიმართულება მეტია, საინჟინრო ფაკულტეტი ცოდაა. ჩვენ ძალიან გვინდა, რომ ჩვენი სტუდენტები ამ მხრივაც გააგრძელონ სწავლა.

**– როგორ ფიქრობთ და აფასებთ, ეთნიკური ახალგაზრდების ქართულ უნივერსიტეტებში სწავლა რამდენად მნიშვნელოვანია და ამ ყველაფრის შემდეგ რამდენად ინტეგრირებულნი არიან ისინი ერთმანეთში, კერძოდ ილიას უნივერსიტეტში?**

– ჩვენ საუნივერსიტეტო საქმიანობაში არ ვაყენებთ საკითხს ეთნიკური კუთვნილებით. უნივერსიტეტისთვის მნიშვნელოვანი არის სტუდენტი, რომელიც სათანადო დონეზე არ იცის ქართული ენა. რა თქმა უნდა ჩვენ გვესმის, რომ საქართველოში მცხოვრები ეთნიკურად აზერბაიჯანლების უნივერსიტეტში შემოსვლა არის სახელმწიფო ამოცანა. ეს არის საქართველოს პერსპექტივის ამოცანა. ჩვენ თუ ვერ მოვახერხეთ დღეს აზერბაიჯანულენოვანი და სომხურენოვანი ახალგაზრდების ინტეგრირება საუნვერსიტეტო სივრცეში, ეს ნიშნავს, რომ ჩვენ ვერ ვწყვედთ სახელმწიფო ამოცანას. პრობლემებიც არსებობს. ჩვენ ჯერჯერობით მაინც ბოლომდე ვერ გავძლიეთ ერთგვარი ჯგუფურობა ახალგაზრდებში. ილიას უნივერსიტეტის მიდგომა ის არის, რომ ყველა ენოვანი სტუდენტი იყოს ერთად. ეს ენის თვალსაზრისითაც უკეთესია და ინტეგრაციისთვისაც.

*–პროგრამების და პროექტების შედეგად რამდენად მოგვარებულია ეს პრობლემა ახალგაზრდებში?*

– 100%-ანი შედეგი არა გვაქვს. ჩვენი ვარაუდით ეს პრობლემა 70%-80%-ით დავძლიეთ. როდესაც ჩვენთან სტუდენტი შემოდის პირველ წელს ის გაცილებით არის იმ მეგობრებზე დამოკიდებული, რომელიც მათთან ერთად შემოვიდა სასწავლებელში. ანუ თავის ენობრივ ჯგუფში. წლის ბოლოს ეს უკვე იშლება. ერთიანი პროექტები, ერთიანი ექსკურსიებზე სიარული, განხორციელებული ღონისძიებები ცვლის გარემოს. ამას ხელს უწყობს სასწავლო პროცესის ხასიათიც. ჩვენთან აზერბაიჯანულენოვანი, სომხურენოვანი და ქართულენოვანი არის ერთ სივრცეში. მთავარი პრობლემა, რაც ახალგაზრდებში არსებობს, ეს არის ის, რომ მათ არ სჯერათ თავიანთი ენის ცოდნის. როცა არიან კონტაქტში ქართულენოვან სტუდენტებთან ისინი იძენენ უფრო მეტ თვითდაჯერებას. რა თქმა უნდა აქ გადამწყვეტი არის აღნიშნული აკადემიური მეთოდოლოგია, რომელიც ილიას უნივერსიტეტმა სპეციალურად შეიმუშავა. როგორც მე მაქვს ინფორმაცია ილიას უნივერსიტეტის პროფესორებმა პირველივე წლიდან დაიწყეს სპეციალური ენობრივი პროგრამის შემუშავება.

**– ტუტორიუმის პროგრამის შესახებ, რომ მოგვაწოდოთ ინფორმაცია.**

– „ტუტორიუმი“ უნივერსიტეტის საამაყო პროგრამაა. ასევე პირველად დაინერგა ილიას სახელმწიფო უნივერსიტეტში. ტუტორი, ნიშნავს ამ ახალგაზრდების ასისტენტ ადამიანს, რომელიც მათ მაგივრად მუშაობს. ეს არის ადამიანი, რომელიც მათი თანატოლია და ეხმარება მათ სამოქალაქო აქტივობების დაგეგმვაში და განხორციელებაში. ჩვენ გვყავს 20-ზე მეტი აზერბაიჯანულენოვანი და სოხმურენოვანი ახალგაზრდა, რომელიც ძალიან დაბალი ენის კომპეტენციით შემოვიდა უნივერსიტეტში. დღეს ისინი არიან უკვე თავისი თანატოლების ტუტორები.

**– 2010 წლიდან დღემდე რამდენმა სტუდენტმა გაიარა ილიას უნივერსიტეტში 14 პროგრამა?**

– 2010-წლიდან დავიწყეთ 5 სტუდენტით. მერე ნელ-ნელა მოიმატა და 500-ზე მეტიც გახდა. დაახლოებით 100-120 სტუდენტი შემოდის ყოველ წელს ჩვენს უნივერსიტეტში. ბოლო ორი წელია, რაც სომხურენოვანი სტუდენტების შემოსვლა დაიკლო და თანაბრად არ არის აზერბაიჯანულენოვან სტუდენტებთან.

*ინტერვიუ ჩაწერა: შალალა ამირჯანოვა*

# XARİCDƏ TƏHSİL

**Təsəvvür edin ki, orta məktəbdə təhsil alan müddətdə hansı dərsləri oxumaq istədiyinizə özünüz qərar verirsiniz, istədiyiniz fənni, istədiyiniz müəllimi asanlıqla dəyişə bilirsiniz... Bəli, xəyal kimi görünsə də, bu gerçəkdir. Amerika Birləşmiş Ştatlarında məktəb şagirləri istədikləri fənni və müəllimləri özləri seçə bilirlər.**

Artıq 7 aydır ki, ABŞ-ın Miçiqan ştatında FLEX – (Future Leaders' Exchange – Gələcəyin liderlərinin mübadiləsi) proqramının tələbəsi kimi "Hesperia High School"da "Senior" olaraq təhsil alıram və hələ də bu sistem məni heyrətləndirməkdədir. Avqust ayında məktəbə qeydiyyat üçün gəldikdə məktəb direktorunun mənə seçim vərəqəsini verib istədiyim dərsləri seçməmi təklif edəndə necə təəccübləndiyim hələ də yadımdadır. Artıq 9-cu sinfə daxil olduqda şagird öz həyat yolunu çizməyə başlayır. Onlar özləri gələcəklərini hansı sahədə davam etdirəcəklərinə uyğun olaraq onlara vacib olan dərsləri seçib öyrənirlər və əgər onların hansısa peşəyə maraqları varsa məktəbdə təhsil almağa məcbur deyillər. Məktəbdən əlavə "VOC" adlandırılan peşə məktəbləri var və tələbələr həmin təhsil ocaqlarında müxtəlif peşələri öyrənə bilərlər. Günün ilk yarısını və ya ikinci yarsını məktəbdə deyil, həmin peşə məktəblərində keçirə bilərlər. Onu da qeyd edim ki, bunların hamısı tam təmənnasızdır və əlavə olaraq məktəbin nəqliyyat vasitələri, filmlərdə gördüyümüz sarı avtobuslar tələbələri bu peşə məktəblərinə aparıb-gətirirlər. Bunların hamısı isə maddi olaraq məktəb tərəfindən qarşılanır. 9-12-ci sinif şagirdləri "High School Student" adlanırlar və onları hansısa sinif şagirdi deyil, məhz onlara məxsus adla qeydiyyat edirlər. 9-cu sinif şagirdləri "Freshmen", 10-cu sinif şagirdləri "Sophmore", 11-ci sinif şagirdləri "Junior", 12-ci sinif sagirdləri isə "Sinior" adlanır. "High School" tələbələrinin yalnız adları fərqlidir. Onlar bərabər eyni dərslərə girib eyni fənnləri öyrənirlər. 12-ci və 9-cu sinif şagirdlərinin birlikdə eyni dərsi öyrənmələri normal bir hadisədir. Məktəbdə demək olar ki, dəftər və qələmdən nadir hallarda istifadə olunur. Çünki dərsliklər daha cox müasir avadanlıqlarla keçirilir. Bu, dərs yox, seminar adlanır. Müəllimlər təqdimat formasında dərsi izah edir və hər həftənin sonu imtahan və ya müəyyən tapşırıqlarla tələbələrin dərsi nə dərəcədə başa düşdüklərini sınayırlar. Dərs danışıb ev tapşırığı etmək əvəzinə, onlar öyrəndiklərini esse və ya suallara cavab olaraq google sinif programı ilə müəllimlərə göndərirlər və qiymətlərini də hər kəsin özünə aid olan "student web page", yəni elektron gündəlikdən yoxlaya bilirlər.

Qiymətləndirməyə gəldikdə isə tələbələr 100% bala əsasən qiymətləndirilirlər. Bunun 20%-ni imtahanlar, 30%-ni dərsdəki fəallıq və geridə qalan 50%-ni isə yerinə yetirilmiş tapşırıqlar təşkil edir. Toplanan faizə əsasən birbaşa elektron gündəlik səni A, B, C, D və F hərfləri ilə qiymətləndirir. Məzun olub attestat almaq üçün Gürcüstandakı kimi 8 atestat imtahanı verməyə ehtiyac yoxdur, əgər "High School"da təhsil aldığın müddət seçdiyin dərslərin heç birindən F – yəni kəsirin yoxdursa asanlıqla məzun ola bilirsən. Əgər qiymətlərindən biri F olarsa bu sənin dərsdən 50% topladığının göstəricisidir. Bu isə, sənin həmin dərsi bir il yenidən oxumalı olduğunu bildirir.

Orta məktəbdən sonra ali məktəbdə təhsil almaq istəyən tələbələr 11-ci və 12-ci sinifdə SAT və ACT adlanan dövlət imtahanlarını verməlidirlər. Bundan əlavə istədiyin universitetə daxil olmaq üçün universitetin sənə verdiyi mövzularda inşa yazmalı olursan. 12-ci sinifdə olduğun müddət bir neçə universitetə qəbul olub onlar arasından istədiyin universiteti seçə bilərsən.

ABŞ-da universitetin illik ödənişləri 15 000 dollardan başlayır və hər il çox az sayda tələbə tam təmənnasız qrant şansını əldə edə bilir. Bu məbləği ödəməyə gücü çatmayan tələbələr illik 2000–5000 ABŞ dolları dəyərində kiçik qrantlar əldə edə bilər. Bunun üçün isə SAT və ACT imtahanlarından yüksək ballar toplamalısan.

Ölkəmizin sərhədlərindən kənara çıxıb dünyayı görüb, yeni biliklər öyrəndikcə, kitablardan oxuyub öyrəndiklərimin necə də cuzi olduğunu anladım. Dünya kiçikdir deyirlər – mən bu fikirlə razılaşmıram, dünyamız əslində çox böyükdür. Onu görüb, gəzib və kəşf etməyə başladıqca onun daha geniş olduğundan bir daha əmin oldum. Başqa millətlərlə ünsiyyətdə olub onların mədəniyyətləri və milli dəyərlərini öyrənmək, ən azı dünyaca məşhur bir kitabı bir nəfəsə oxumaq qədər maraqlıdır. Fərqlilikləri görüb onları düzgün qəbul etmək, bəzən əlimizdə olanların dəyərini anlamağı, bəzən isə özümüzü inkişaf etdirməli olduğumuzu öyrədir. Əgər dünyadakı bütün gənclərə səsimi eşitdirə bilmək şansım olsaydı onlara bu sözləri deyərdim: Bir yola çıxdıqda özünüzə bir məktub yazın, bu yoldakı tərəddüdlərinizi və məqsədlərinizi yazın və məktubu ən azı bir ildən sonra oxuyun.



**Aytən Rüstəmova** *– ABŞ-ın Miçiqan ştatında FLEX proqramının 2017-2018-ci il tələbəsi. Amerika, Miçiqan*

O sətirləri yazanda harada olduğunuzu və indi dayandığınız yerləri müqayisə edin. Yaxşı və ya pis fərqləri özünüz görəcəksiniz. Məqsədə gedən yolda mənеələr və ya onları törədən insanlar həmişə olur, onlara qulaq asmaq yerinə məqsədinizə doğru gedən yolda bir addım daha atın. Onu da nəzərə alın ki, hər şey sizin beyninizdən başlayır. Özünüzə güvənin və həmişə daha yaxşı yerlərə layiq olduğunuzu unutmayın.

**Bu sözləri yazanda uğur qazandığım ilk voleybol oyunu yadıma düşdü. ABŞ gənclərinin həyatının ən vacib hissələrindən birini idman tutur. Əgər onlar üçün idmanın nə demək olduğunu bilmək istəyirsinizsə əlinizdə tutduğunuz qəzetin gələn sayını mütləq oxuyun. İdman möuzusunda fərqli çərçivədən baxış və şəxsi təcrübəmdən yazacam. Gələn sayda görüşənədək. Sag olun və yüksək motivasiya ilə qalın!**

## GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ DİN DƏRSLƏRİNİN TƏDRİSİ PLANLAŞDIRILMIR

"Gürcüstan orta məktəblərində din dərslərinin keçirilməsi planlaşdırılmır". Bu barədə Gürcüstan təhsil və elm nazirinin müavini Liya Qiqauri deyib. O bildirib ki, nazirin təşəbbüsü dinlərin tarixi və mədəniyyətləri barədə seçim əsasında dərslərin keçirilməsi ilə bağlı olub: "Bu istiqamətdə işlər hələ başlamayıb. Bu, yalnız ideyadır və müzakirə olunur".

Qeyd edək ki, ötən ay Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli bütün məktəblərdə din tarixinin tədrisinin bərpa olunması təşəbbüsü ilə çıxış edib.

Xatırladaq ki, Ümum Gürcüstanın Katolik-Patriarxı İkinci İlia xütbəsi zamanı məktəblərdə din tarixinin tədrisinin vacib olduğunu qeyd edib.

## GÜRCÜ DİLİ VƏ RİYAZİYYAT FƏNNLƏRİ ÜÇÜN KÖMƏKÇİ DƏRSLİKLƏR HAZIRLANIB



Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə şagirdlər üçün gürcü dili və riyaziyyat fənnləri üçün köməkçi dərsliklər yaradılıb. Dərslikləri məktəblərə elm və təhsil nazirinin müavini Lia Qiqauri təqdim edib.

11 adda kitab nəşr olunub və bunun bir hissəsi şagirdlər üçün nəzərdə tutulub, digər hissəsi isə müəllimlər üçün bələdçidir.

Dərsliklər ictimai məktəblərdən əlavə Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyi nəznində olan evsiz uşaqlar üçün mərkəzlərə də veriləcək.

## MƏKTƏBLƏRDƏ VİDEO KAMERALARIN QURAŞDIRILMASI MƏCBURİ OLACAQ

Orta məktəblərdə təhlükəsizliyin təmin edilməsi məqsədi ilə video kameraların quraşdırılması məcburi olacaq. Bu haqda "Ümumtəhsil haqqında" qanuna daxil edilmiş qanunlayihədə deyilir.

Qanunlayihəyə əsasən, video kameralar məktəbin daxilində və xaricində quraşdırılaraq məktəbin bütün ərazisini əhatə edəcək.

Daxili İşlər Nazirliyinin məlumatına əsasən, video kameralar quraşdırılmış məktəblərdə əhatə sahəsini genişləndirmək üçün kameraların sayı artırılacaq.



"Məktəblərin video kameralarla təchizatı prosesi mərhələli şəkildə olacaq və Gürcüstanın bütün məktəblərini əhatə edəcək. Kamera olan məktəblərdə əhatə sahəsi yoxlanacaq və lazım olan halda kameraların sayı artırılacaq", – deyə DİN bildirib.

## ORTA MƏKTƏBLƏRDƏ BURAXILIŞ İMTAHANLARINDA BİR NEÇƏ FƏNN LƏĞV OLUNA BİLƏR

Təhsil naziri Mixel Çxenkelinin verdiyi məlumata əsasən, orta məktəblərdə buraxılış imtahanlarında bir neçə fənn ləğv oluna bilər.

Onun sözlərinə görə, Təhsil Nazirliyi bir neçə istiqamətdə çalışır və imtahanlarla bağlı dəyişikliklərin bu il qüvvəyə minməsi ehtimal edilir.

"Bizə, dövlətə, ictimaiyyətə düşüncəli adamlar lazımdır. Bütün ixtisaslarda məlumat verilməsindən əlavə, aksent yaradıcı və tənqidi düşüncəyə verilməlidir. Tez-tez Plutarxın sözünü təkrar edirəm, "Zehin qab-qacaq deyil ki doldurasan, bu oddur və yandırmalısan". Məhz bizim devizimiz də təhsilin bütün pillələrində bu olacaq. Biz İmtahan Mərkəzi ilə davamlı olaraq çalışırıq ki, imtahanları bu istiqamətdə aparaq. Aydındır ki, orada şagirdin nə dərəcədə məlumatlı olması yoxlanılmalıdır. Eyni zamanda yaradıcılıq və düşüncəyə də aksent edilməlidir. İmtahanlarla bağlı dəyişikliklər planlaşdırılıb və çalışırıq", – deyə nazir bildirib.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN "THE NEW YORK TIMES" QƏZETİNDƏ YAYIMLANAN "AMERİKA YANLIŞ ORTAQ SEÇDİ" MƏQALƏSİ

(əvvəli 1-ci səhifədə)

***DAEŞ Suriya və İraqda ərazilər üzərində kontrolunu itirdi, amma onun yenidən cinayət törətməyə gücü var. Türkiyə Cümhuriyyəti DAEŞ şəbəkəsinə qarşı yeni əməliyyat keçirdi və bununla onun yenidənqurma cəhdlərinin qarşısını aldı.***

Amerika səlahiyyətliləri DAEŞ qruplaşmasını aradan qaldırmaq üçün ABŞ-ın Suriya ərazisində şəxsi hərbi qüvvəsinin olmasını istədiyini dedilər. Həmçinin, DAEŞ-ə qarşı mübarizə o demək deyil ki, biz öz regionumuzda ölkəmizi və bizim vətəndaşların təhlükəsizliyini hədələyən başqa terrorla mübarizə aparmayacağıq.

Bu müharibədə ABŞ tərəfindən seçilmiş yerli ortaqlar bizim aramızda kilid yaratdı. Bu Amerika hökumətinin özünün terrorçu olaraq tanıdığı qrupdur. Sözdə "Xalq Mühafizə Birlikləri", yəni YPG sadəcə başqa bir adla qüvvədə olan, qanundan kənar elan olunmuş terror təşkilatı "Kürdüstan İşçi Partiyası"dır.

Qruplar özlərinə müxtəlif adlar veriblər və qarışıq strukturlar inkişaf etdiriblər. Amma bu, həqiqəti maskalamır. Onlar eyni kadrlarla idarə olunurlar, eyni düşərgələrdə təlim keçirlər, ümumi təşkilati və hərbi strukturlardan, təbliğat vasitələrindən və maddi resurslardan istifadə edirlər. "Kürdüstan İşçi Partiyası" PKK YPG-yə rəhbərlik edir və PKK-nın intiharçı döyüşçüləri Suriyada YPG-nin düşərgələrində təlim keçirlər.

Biz heyrət içindəyik ki, YPG/PKK terrorçuları bizim sərhəddən kənar İraq və Suriyada təlim keçirlər və ABŞ tərəfindən silahlanırlar. Bizim təhlükəsizlik qüvvələrinin əlinə düşən PKK terrorçularının silahı getdikcə həm sayca, həm də keyfiyyətcə artır və daha da modernləşdirilir.

NATO-nun müttəfiqi terror təşkilatını silahla təmin edir və onun NATO-nun özünə və eləcə də digər müttəfiqlərinə hücum etməsi faktı, NATO tərəfindən elan olunmuş bütün təməl prinsiplərin pozulmasıdır. Bu düzəlməyə ehtiyac duyan siyasi anomaliyadır.

Şübhəmiz yoxdur, ABŞ anlayacaq ki, bu siyasət NATO-nun etibarlılığı baxımından zərərlidir. O, qeyd olunan siyasəti dəyişəcək və yenidən öz müttəfiqlərinə və uzun müddətli maraqlarına üstünlük verəcək. Amerikalıların "Xalq Mühafizə Birliyinə" olan etibarı, ABŞ-ın artıq Türkiyədə ortağını tanıdığı halda, özlərinə vurduqları acınacaqlı səhvdir.

Amma Türkiyə kursun son və keçilməz dəyişikliyini gözləyə bilməz. Türkiyənin təhlükəsizlik problemləri ilə bağlı narahatlığı aydındır kimi boş söhbətlər gün qrafikindən mövcud olan təhlükə və hədələri çıxarmır.

Son həftələr ərzində Türkiyə Cümhuriyyəti YPG və DAEŞ-in Suriyadakı düşərgələrinin yaratdığı təhlükələri sənədli olaraq təsdiqlədi. Suriyanın Afrin bölgəsində terrorçular region əhalisini və eləcə də sərhəddə yaşayan türklərin həyat və mülkünə təhlükə yaradırlar.

Biz hərəkət etməli idik və Türkiyə Afrində "Zeytun Budağı" anti-terror əməliyyatına başladı.

Əməliyyatın məqsədi aydındır: sərhədlərimizdə təhlükəsizliyi təmin etmək və Afrində terrorçuların neytrallaşdırılması; əməliyyat beynəlxalq hüquq prinsiplərinin qorunması əsasında, bizim legitim müdafiə hüquqlarımıza uyğun olaraq aparılır; əməliyyatın hədəfi terrorçular, onların sığınacaqları, onların silahlanması və müvafiq infrastrukturlardır. Türkiyə ordusu ali ehtiyat ölçülərindən istifadə edərək hərəkət edir ki, mülki şəxslərə zərər vurulması halı aradan qaldırılsın.

Biz artıq humanitar səylərimizi yetərincə gücləndirdik, Afrindən qaçmış dinc əhali üçün düşərgələr yaratdıq. Artıq üç milyondan çox suriyalını qəbul etmişik. Türkiyənin humanitar təşkilatları isə bizim köməyimizə ehtiyacı olan hər kəsə yardım göstərir.

Türkiyə əməliyyatı terrorçuların sonuna qədər məhv olacaqları vaxta kimi gücləndirəcək. Türkiyə separatçı anklavların yaranması və ya milli təhlükəsizliyi hədələyən və Suriya xalqının istəyinə qarşı çıxan terrorçular sığınacağı ilə heç vaxt barışmayacaq.

Türkiyə artıq Suriyada problemlərin həllinə istiqamətlənmiş bütün siyasi proseslərdə iştirak edib. Suriyanın ərazi bütövlüyünü saxlaması sülh üçün səy göstərmə məsələlərindəki əsas mövqeyini əks etdirir. Terrorçuların təmizlənməsi sülh üçün sahənin açılması deməkdir.

***Biz terror təşkilatlarına, qonşuların partladılmasına, regionumuzda müharibə və humanitar faciələrə yer olmayacaq gələcək üçün mübarizə aparırıq. Türkiyə bu mübarizədə ABŞ-dan hörmət və dəstəyə layiqdir.***

## ZURAB PATARADZE TÜRKİYƏNİN BAŞ KONSULU MAKBULE KOÇAKLA GÖRÜŞÜB



Fevralın 7-si Acarıstan Muxtar Respublikasının hökumət rəhbəri Zurab Pataradze Türkiyə Cümhuriyyətinin baş konsulu Makbule Koçakla görüş keçirib. Zurab Pataradze yeni təyin olunmuş konsulu missiyasına başlaması münasibəti ilə təbrik edib və gələcək işlərində ona uğurlar arzulayıb.

Görüşdə Zurab Pataradze və Makbule Koçak Gürcüstan və Türkiyə arasında olan münasibətləri və əməkdaşlıq sahələrini müzakirə ediblər. Tərəflər ticari-iqtisadi, siyasi və mədəni-humanitar münasibətlər istiqamətində əməkdaşlığın daha da dərinləşməsinə dair istəklərini bildiriblər. Görüşdə həmçinin turizm sahəsində əməkdaşlığın növbəti inkişaf perspektivləri haqqında da söhbət aparılıb.

Zurab Pataradze və Makbule Koçak Sarp keçid məntəqəsinin çalışması məsələsini də müzakirə ediblər. Tərəflər bir daha iki ölkə arasında gediş-gəlişin köhnə qaydada həyata keçirildiyini diqqətə yetiriblər və bildiriblər ki, bu, iki ölkənin nümayəndələrinin koordinasiyaya uyğun və birgə çalışmasının nəticəsidir.

"Hər iki tərəf üçün optimal və düzgün sərhəd siyasətinin olması vacibdir. İnanıram ki, yaxın gələcəkdə planlaşdırılan məsləhətlər sayəsində iki ölkə üçün də əlverişli nəticəyə nail olacağıq. Yaxşıdır ki, indiki mərhələdə bizim ölkələrin vətəndaşları sərhəddi yenə köhnə qaydaya əsasən keçirlər və bu baxımdan onların problemi olmur", - deyə Zurab Pataradze bildirib.

Görüşdə Sarp keçid-buraxılış məntəqəsində gedən modernləşdirmə prosesindən də söhbət açılıb. Söhbət zamanı qeyd olunub ki, rekonstruksiya işlərinin bitməsindən sonra səfər edənlərin və avtomobil nəqliyyatının keçidi daha da asanlaşacaq.

Acarıstan Muxtar Respublikasının hökumət rəhbəri və Türkiyənin baş konsulu Gürcüstan-Türkiyə dostluq münasibətlərinin inkişafı məsələləri haqqında da danışıblar. Tərəflər qeyd edib ki, bu baxımdan əməkdaşlıq daha da möhkəmlənir.

Xatırladaq ki, Makbule Koçak 2018-ci ilin yanvar ayında Türkiyə Cümhuriyyətinin Batumidə konsulu olaraq təyin edilib.

## RUSTAVİ ŞƏHƏRİNDƏ FÖVQƏLADƏ HALLAR İDARƏSİ XİDMƏTİNİN YENİ OFİSİ AÇILIB

Fevral ayında Fövqəladə Hallar İdarəsi Xidmətinin rəhbəri Giorgi Mğebrişvili Kvemo Kartlidə dövlət müvəkkili-qubernator Qriqol Nemsadze və Rustavi meri İrakli Tabağua, Rustavidə Fövqəladə Hallar İdarəsi Xidmətinin Kvemo Kartli İdarəçiliyi ofisinin açılışını ediblər.

Avropa standartlarına uyğun olan bina müasir inventarla təchiz olunub. Rustavinin yanğınsöndürmə xidmətində 20-yə qədər şəxs çalışacaq.

Yaxın gələcəkdə müasir tipli yeni ofisin açılması Quriya və Acarıstanda da planlaşdırılır.

## QARDABANİ MERİYASI QARŞILIQLI ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALAYIB

Qardabani meriyası və "Silahı tərk etmək və zorakılığa yox" təşkilatı arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumun məqsədi Kvemo Kartlidə yaşayan qadınların biznes sahəsində biliklərinin daha da artırılması, onların ictimai həyata fəal olaraq qoşulmasına dəstək olmaqdır. Memorandumun imzalanmasından sonra Qardabani Mədəniyyət Evində, Qardabani meriyası nəzdində fəaliyyət göstərən "Qadınlar otağı"nın təşkilatçılığı ilə "Biznesin planlaşdırılması və idarəsi" mövzusunda seminar da keçirilib.

### KVEMO KARTLİ POLİS DEPARTAMENTİNDƏ KADR DƏYİŞİKLİYİ OLUB

Daxili İşlər Nazirliyinin Kvemo Kartli Polis Departamentinə yeni rəhbər təyin edilib. Departamentə Qaqa Kirkitadze rəhbərlik edəcək. O, Levan Tokonidzeni əvəz edib.

Xatırladaq ki, Qaqa Kirkitadze yeni vəzifəsinə qədər Maliyyə Nazirliyinin İstintaq Departamentində çalışıb.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 FEVRAL 2018-Cİ İL
№001 (60)

## HANSI SLAYM OYUNCAQLARI UŞAQLAR ÜÇÜN TƏHLÜKƏLİDİR



"Amazon" internet mağazası slaym (maye oyuncağı) adlanan oyuncağı satışdan götürüb. Britaniya media vasitəsi BBC-nin məlumatına görə, qeyd olunan oyuncağın tərkibində mərgümüş (bir çox mineralların tərkibində olan zəhərli bərk maddə - kimyəvi element) elementinin yolverilən normadan 7 dəfə artıq olmasını aşkarladıqdan sonra şirkət bu qərarı verib.

Slaym oyuncağının növlərinin hamısının zərərli olması təsdiqlənməsə də, BBC-nin qadağası "maqnit slaymları" istehlakçısına aid olub. Təhlükə testləşdirmə nəticəsində aşkarlanıb. Tərkibində yüksək səviyyədə təhlükəli maddələrin olmasına baxmayaraq, məhsulun qablaşdırılmasında qeyd olunub ki, oyuncaq zəhərli maddələr daşımır və sağlamlıq üçün təhlükəsizdir.

Mərgümüşün yüksək səviyyədə olmasından əlavə müəyyən olunub ki, məhsulun qablaşdırılmasında olan maqnit cəlbetməsi yolverilən normadan 29 dəfə artıqdır. Kiçik ölçü isə uşağın maqniti udmaq təhlükəsini yaradır.

Gürcüstanda çalışan "Super", "Xs Toys" və "Cita" oyuncaq mağazalar şəbəkələri bildiriblər ki, onların məhsulu Avropa İttifaqı standartlarına uyğundur və satışa çıxardıqları oyuncaqlarla yanaşı laboratoriya tədqiqatının nəticələrini də yerləşdirirlər. Bu növ zərərli oyuncaq isə onlarda satışda olmayıb.

"Bizim şəbəkəyə maqnitli slaym oyuncaqları daxil olmur, çünki bəribaşdan bizim rəhbərlik qərar verdi ki, qeyd olunan oyuncaqlar sağlamlığa zərərlidir", - deyir "Cita" mağazalar şəbəkəsinin direktoru Nino Lomidze.

"Dövlət strukturları tərəfindən keyfiyyət yoxlanılmır. Hələ Gürcıstanın akreditasiyadan keçmiş laboratoriyası yoxdur ki, hər hansı hüquqi və ya fiziki şəxsin məhsulunu yoxlasın. Bu halda, biz MMC təşkilatlar və istifadəçilər, bizə göndərilən sənədlərə etibar etmək məcburiyyətində qalırıq", - deyir Lomidze.

**Hazırladı: Aynurə Əliyeva**

## GÜRCÜSTAN ƏHALİSİ AZƏRBAYCANI DOST ÖLKƏLƏRDƏN BİRİ SAYIR

Bu barədə Qafqaz Tədqiqat Resurs Mərkəzinin (CRRC - Georgia) "Qafqaz barometri 2017" sorğusunun nəticələrində deyilir.

Sorğuya əsasən rəyi soruşulanların 25%-i ABŞ-ı, 7%-i Azərbaycanı, 7%-i Ukraynanı, 6%-i Türkiyəni, 6%-i isə Rusiyanı əsas dost ölkə hesab edir. Respondentlərin 17%-i heç bir dövləti dost saymır. Rəyi soruşulanların 25%-i cavab verməkdə çətinlik çəkib.

## AVROPA PARLAMENTİ YAY VAXTINA KEÇİDİN LƏĞVİNƏ DAİR QƏRAR QƏBUL ETDİ

Fevralın 8-də Avropa Parlamentinin Strasburqda keçirilən plenar iclasında Avropa İttifaqı ölkələrində yay və qış vaxtlarına keçid rejiminin ləğv olunmasına dair qərar layihəsi qəbul olunub.

Parlament üzvlərinin 384-ü layihənin lehinə, 153-ü əleyhinə səs verib, 12 deputat bitərəf qalıb. Prosedura əsasən, qərar daha sonra Avropa komissiyasında dəyərləndiriləcək. Avropa İttifaqının sammitində müsbət nəticə əldə olunacağı təqdirdə isə üzv ölkələrin parlamentlərində müzakirəyə çıxarılacaq.

Avropa İttifaqı ölkələrində yay və qış vaxtlarına keçid Avropa Parlamentinin və Aİ Şurasının 2000/84/EG göstərişi ilə tənzimlənir. Saatın əqrəblərinin çəkilməsinin məqsədəuyğunluğu ətrafında mübahisələr onun tətbiq olunduğu vaxtdan bəri davam edir. Bir çoxlarının fikrincə, yay vaxtına keçid iqtisadi baxımdan özünü doğrultmur və insanların narahatlığına səbəb olur.

Asiya, Afrika və Cənubi Amerikanın bəzi ölkələri bu praktikadan imtina etsə də, Avropada və Şimali Amerikada hələ də tətbiq edilir.

## 2018-Cİ İLİN DÜNYA FUTBOL ÇEMPİONATININ PƏRƏSTİŞKARLARI RUSİYAYA VİZASIZ GEDƏ BİLƏCƏKLƏR

Rusiyada keçirilən 2018-ci ilin Dünya Futbol Çempionatının azarkeşləri yarışı izləmək üçün Rusiyaya vizasız gedə biləcəklər.

Bu barədə məlumat çempionatın təşkilatçı komitəsinin veb-səhifəsində – Welcome2018.com-da verilir.

Rusiyaya vizasız getmək üçün futbol pərəstişkarı veb-səhifədə qətiyyatdan keçib, pərəstişkar pasportu – FAN ID almalıdır.

"Pərəstişkar pasportu" olan şəxslər çempionat ərzindəki bütün matçlarda bilet alıb iştirak edə biləcəklər.

Dünya Futbol Çempionatı Rusiyada iyunun 14-də başlayacaq və iyulun 15-nə qədər davam edəcək.

## "SİLKNET" "GEOCELL"İ ALA BİLƏR

"Silknet"şirkəti "Geocell"i ala bilər. Bununla bağlı məlumatı şirkətin özü yayıb. Məlumata əsasən, razılaşma 153 milyon ABŞ dolları dəyərindədir.

"Gürcüstan tarixində baş tutmuş ən böyük saziş nəticəsində "Silknet" internet, kabel televiziyası və ev telefonu xidmətlərini "Geocell" mobil xidmətləri ilə birləşdirərək tam spektrli telekommunikasiya şirkəti olacaq" – şirkət tərəfindən yayılmış məlumatda qeyd olunur.

Məlumatda bildirilir ki, "Geocell"in səhmdarlarından "Telia Company" və "Turkcell" artıq satılıb.

Milli Rabitə Komissiyası tərəfindən razılıq qəbul edildikdən sonra 2018-ci ilin ilk yarısında tamamlanacaq. Ərizədə yazılır ki, "Silknet" müqavilə nəticəsində Gürcüstan tarixində ən böyük telekommunikasiya şirkəti olacaq.

Xatırladaq ki, "Silknet" 2010-cu ildə bir neçə yerli şirkətlərlə birləşərək fəaliyyətə başlayıb.

"Geocell" şirkəti 1996-cı ildə təsis edilib. Hal-hazırda ondan istifadə edən 2 milyona qədər abonent var və Gürcüstan ərazisinin 98%-ni əhatə edir.

## PXENÇAN-2018 QIŞ OLİMPİYA OYUNLARI START GÖTÜRÜB




Fevralın 9-da Cənubi Koreyanın Pxençan şəhərində XXIII Qış Olimpiya Oyunlarının açılış mərasimi olub. Mərasim Alpenziya dağ xizəyi kurortundakı Hvanqe olimpiya parkında baş tutub.

Budəfəki Qış Olimpiya Oyunlarında 92 ölkədən 2925 idmançı mübarizə aparacaq. Malayziya, Sinqapur, Ekvador, Eritreya, Nigeriya və Kosovo atletləri Qış Oyunlarında ilk dəfə iştirak edirlər. KXDR komandasına xüsusi kvota verilib və bu ölkə Oyunlarda 22 idmançı, o cümlədən Şimali və Cənubi Koreyanın qadınlardan ibarət vahid xokkey komandası ilə təmsil olunacaq. Bu il Oyunlarda Gürcüstanı dörd idmançı təmsil edir.

Rusiyalı idmançılar qış oyunlarına olimpiya bayrağı altında çıxıblar. Bu ölkənin nümayəndə heyətinə bütün milli simvollardan, o cümlədən dövlət gerbi, Rusiya Olimpiya Komitəsinin emblemi və "Team Russia" əmtəə nişanından istifadə etmək qadağan olunub. Bununla yanaşı, azarkeşlər tribunalarda Rusiya bayrağını sərbəst şəkildə nümayiş etdirə bilərlər.

Qış oyunlarının iştirakçıları iki Olimpiya kəndində yerləşəcəklər. Onlardan biri Pxençanda, digəri isə Kannın şəhərindədir. Oyunların proqramına 15 idman növü daxildir və idmançılar 102 dəst medal uğrunda mübarizə aparacaqlar.

Olimpiadanın bağlanış mərasimi fevralın 25-də baş tutacaq.

## ABUNƏÇİLƏRLƏ MÜQAVİLƏNİN UĞURSUZLUĞUNA GÖRƏ "BEELINE" ŞİRKƏTİNƏ 90 000 LARİ MƏBLƏĞİNDƏ CƏRİMƏ TƏTBİQ OLUNUB

Gürcüstan Milli Kommunikasiya Komissiyası "Beeline" (Violin Georgia Ltd) şirkəti müqaviləsiz nömrə satdığına görə 90 000 lari cərimələnib.

Komissiyaya əsasən, "Beeline" eyni qanun pozuntusu ilə bağlı əvvəl də xəbərdarlıq alıb və 30 000 lari cərimələnib.

Elektron Rabitə haqqında qanuna əsasən, Milli Kommunikasiya Komissiyası oxşar qanun pozuntularına reaksiya vermək üçün məsuliyyət daşıyır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.